

“Azərbaycan xalqının özünü, öz dövlətini qoruya bilən əsgərləri, zabitləri, ordusu var”.

# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 2 may 2026-cı il №29 (3031) https://mod.gov.az Qiyməti 30 qəpik




## “Məşğələlər hərbi qulluqçuların peşəkarlıq səviyyəsini artırır”

*Bu gün regionun ən güclüsü olan ordumuzun arsenalının və maddi-texniki bazasının gücləndirilməsi, hərbi qulluqçularımızın bilik və bacarıqlarının artırılması, eləcə də onların sosial-məişət şəraitinin daha da yaxşılaşdırılması istiqamətində plana uyğun olaraq islahatlar həyata keçirilir. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin göstərişinə əsasən həyata keçirilən irimiqyaslı islahatlar ordumuzun digər qoşun növləri kimi, Mühəndis Qoşunlarının hissə və bölmələrini də əhatə edir.*

Azərbaycan Ordusunun Mühəndis Qoşunları 44 günlük Vətən müharibəsindən əvvəl, torpaqlarımızın azad olunması uğrunda gedən döyüş əməliyyatları zamanı, eləcə də müharibədən sonrakı dövrlərdə öz üzərinə düşən tapşırıqları uğurla yerinə yetirdi. İkinci Qarabağ müharibəsinin ilk günlərindən etibarən ordumuzun bölmələrinin irəliləməsi və işğal altında olan ərazilərimizi azad etməsi üçün keçidlərin açılması, maneələrin dəf olunması, o cümlədən "Ohanyan səddi"nin yarılması zəruri idi. Azərbaycan Ordusunun Mühəndis Qoşunlarının hissə və bölmələrinin fəaliyyəti nəticəsində bu "keçilməz sədd"in qısa zaman ərzində dəf edilməsi də məhz Böyük Qələbənin başlanğıcı oldu. Döyüş tapşırıqları mühəndis-istehkam bölmələrinin arsenalında olan müasir texnika və avadanlıqlardan istifadə edilməklə müvəffəqiyyətlə yerinə yetirildi. Vətən müharibəsi zamanı Mühəndis Qoşunlarının hissə və bölmələri üzərinə düşən vəzifələri - bölmələrin hərəkət qabiliyyətini artırma, keçid açma, mühəndis maneələrinin dəf olunması, mina, kustar üsullarla hazırlanmış partlayıcı qurğu və döyüş sursatlarının zərərsizləşdirilməsi, təminat yollarının salınması, həmçinin "Zəfər yolu"nun açılması və digər fəaliyyətləri yüksək səviyyədə icra etməklə tarixi Qələbənin qazanılmasında böyük pay sahibi oldular.

Mühəndis Qoşunlarının işi müharibənin başa çatması ilə yekunlaşmadı. Müzəffər Ali Baş Komandanın rəhbərliyi altında ordumuzun qələbəsi ilə yekunlaşan Vətən müharibəsindən sonrakı dövrdə də azad olunmuş ərazilərimizdə mühəndis işləri davam etdirildi. Yurd-yuvalarından didərgin düşmüş soydaşlarımızın öz ata-baba ocaqlarına qayıtması, onların təhlükəsizliyinin təmin olunması üçün işğaldan azad olunmuş ərazilərimizin mina və partlamamış döyüş sursatlarından təmizlənməsi mühəndis-istehkam bölmələrinin qarşısında yeni vəzifə və tapşırıqlar qoydu. Ərazilərimizin təmizlənməsi üçün həm xüsusi bölmələr yaradıldı, həm də Mühəndis Qoşunları digər aidiyyəti dövlət qurumları ilə birgə bu işə cəlb olundular. Çox məsuliyyətli, xüsusi diqqət tələb edən bu fəaliyyət planlı şəkildə həyata keçirilməyə başlandı.

(Ardı 4-cü səhifədə)

## “MIZRAK” ilk dəfə “SAHA 2026”da nümayiş olunacaq

Türkiyənin "Baykar" şirkəti süni intellektlə idarə olunan kamikadze tipli "MIZRAK" pilotsuz uçuş aparatı (PUA) modelini təqdim edib.

Bu barədə Türkiyə mediası xəbər verib.

"MIZRAK" bu ölkənin İstanbul şəhərində mayın 5-9-da keçiriləcək və qlobal müdafiə sənayesinin "görüş nöqtəsi" sayılan "SAHA 2026"-da ilk dəfə nümayiş etdiriləcək.

Şirkət PUA-nın "SAHA 2026" sərgisində ictimaiyyətə təqdimatı ərəfəsində döyüş atışlı sınaqlardan görüntülər nümayiş etdirib.

"Baykar" tərəfindən tamamilə yerli imkanlarla orijinal şəkildə hazırlanan sistem 1000 kilometrdən çox uçuş məsafəsi və süni intellektli avtonom qabiliyyətləri ilə diqqət çəkir.

Sistem müəyyən edilmiş ərazidə patrul xidməti aparmaq, hədəfləri avtonom şəkildə aşkar etmək və GPS siqnalı olmadıqda belə dəqiq zərbələr endirmək qabiliyyətinə malikdir. Aparat "sürü" tərkibində əməliyyatlar və uzun mənzilli missiyalar (1000 km-dən artıq) üçün nəzərdə tutulub.

**"Azərbaycan Ordusu"**



## “TurAz Qartalı-2026” birgə taktiki-uçuş təlimi davam edir

Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında hərbi əməkdaşlıq çərçivəsində keçirilən "TurAz Qartalı-2026" birgə taktiki-uçuş təlimi davam edir.

Müdafiə Nazirliyi xəbər verir ki, təlim planına uyğun olaraq, müxtəlif epizodlar üzrə qarşılıqlı fəaliyyət tapşırıqları icra olunur. Türkiyə Hərbi Hava Qüvvələrinə (HHQ) məxsus Sikorsky S-70 helikopteri vasitəsilə radioelektron mübarizə (REM) tədbirləri yerinə yetirilərək, şərti düşmənin yerüstü radioelektron vasitələri susdurulub. Eyni zamanda, Azərbaycan HHQ-yə məxsus Mi-17 helikopteri ilə şərti hədəflərin aşkar edilməsi və məhv olunması üzrə tapşırıqlar uğurla icra edilib.





Təlimin keçirilməsində əsas məqsəd qardaş ölkələrin HHQ-ləri arasında birgə fəaliyyətlərin uzlaşdırılması, şəxsi heyətin peşəkarlığının artırılması və qarşılıqlı təcrübə mübadiləsinin genişləndirilməsidir.

## “Silahı daha yaxşı öyrənməliyik”



Səhərdir. Əsgərlər dağların ətəyində yerləşən məşğələ yerlərinə gedirlər. Onların arasında tank əleyhinə qurğunun heyəti də var. Hərbi qulluqçular çöl məşğələsində onlara təhkim olunan silah haqqında nəzəribilik və praktiki bacarıqlarını təkmilləşdirirlər. Hər bir silaha uyğun ərazidə dərs yerləri hazırlanıb. Orada hər silahın öz hədəfi var. Tank əleyhinə qurğunun heyəti məşğələ yerində silahın taktiki-texniki xüsusiyyətlərini öyrənir. Məşğələ yerində müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu baş çavuş Polad Məmmədov əsgərlərə tank əleyhinə qurğunun döyüşdə tətbiqini izah edirdi.

(Ardı 5-ci səhifədə)

## Ölkəmizin ilk hərbi məktəblərindən birinin ilk azərbaycanlı rəisi



Şirin bəy Cəfər oğlu Kəsəmənli 17 oktyabr 1887-ci ildə Qazax qəzasının Qıraq Kəsəmən (hazırda Ağstafa rayonu) kəndində anadan olub.

Şirin bəy hərbi təhsilini Tiflis Kadet Korpusunda alıb, oranı bitirdikdən (1905) sonra Qusar alayında xidmətə başlayıb. Daha sonra hərbi təhsilini Kiyevdə ikinci Konstantin topçu məktəbində (Konstantinovski Artilleriya Məktəbi) davam etdirib.

Birinci Dünya müharibəsi (1914-1918) başlayan zaman Şirin bəy Kəsəmənli podporuçik rütbəsində 39-cu Piyada Diviziyasının 156-cı Yelizavetpol Piyada Alayında xidmət edib.

(Ardı 8-ci səhifədə)

**Azərbaycan Respublikasının Prezidenti İlham ƏLİYEV:**

*"... Ulu Öndər Heydər Əliyevin Fərmanı ilə Azərbaycanda Xüsusi Təyinatlı Qüvvələr yaradılmışdır. Ulu Öndər bu Fərmanı imzalamaqla növbəti dəfə böyük uzaqgörənlik göstərmişdir. Xüsusi Təyinatlı Qüvvələrin yaradılması İkinci Qarabağ müharibəsindəki tarixi Zəfərimizdə də özünü sübut etdi".*

# Vətənə sədaqətim şərəfimdir!



Azərbaycan Ordusunun döyüş qabiliyyətinin formalaşdırılmasında mühüm yer tutan Xüsusi Təyinatlı Qüvvələr (XTQ) yüksək hazırlıq səviyyəsi, çevik qərarvermə bacarığı və mürəkkəb şəraitdə tapşırıqları yerinə yetirmək qabiliyyəti ilə seçilir. Bu qüvvələr xüsusi seçilmiş heyətdən ibarət olmaqla, ən çətin əməliyyatların icrasına cəlb olunur. Onların fəaliyyəti yalnız döyüş meydanı ilə məhdudlaşmır, həm də strateji təhlükəsizliyin təmin olunması, qabaqlayıcı tədbirlərin həyata keçirilməsi və müxtəlif risklərin aradan qaldırılması kimi mühüm istiqamətləri əhatə edir.

XTQ-nin formalaşdırılması müstəqilliyin ilk illərində yaranmış zərurətdən irəli gəlib. Həmin dövrdə ölkəmiz qarşısında duran əsas vəzifələrdən biri müasir tələblərə cavab verən, çevik və operativ hərbi strukturların yaradılması idi. İlkin mərhələdə məhdud imkanlarla fəaliyyətə başlayan bu bölmələr zaman keçdikcə inkişaf etdirildi, onların maddi-texniki bazası gücləndirildi və hazırlıq sistemi yenidən quruldu. Bu proses nəticəsində XTQ qısa müddətdə Azərbaycan Ordusunun ən peşəkar birləşmələrindən birinə çevrildi.

Bu qüvvələrə qəbul ciddi seçim mərhələlərindən keçir. Namizədlər fiziki dözümlülük, psixoloji dayanıqlıq və taktiki düşünmə qabiliyyəti baxımından sınaqdan keçirilər. Yalnız ən hazırlıqlı şəxslər bu mərhələləri uğurla keçərək xüsusi təyinatlı adını qazanır. Qəbuldan sonra şəxsi heyət uzunmüddətli hazırlıq kurslarına cəlb olunur və müxtəlif döyüş şəraitinə uyğun biliklər əldə edir.

Hazırlıq prosesi çoxşaxəlidir və fərqli iqlim şəraitlərini əhatə edir. Dağlıq ərazilərdə keçirilən məşqlər döyüşçülərin çətin relyefdə hərəkət imkanlarını genişləndirir. Meşəlik sahələrdə aparılan tapşırıqlar gizli fəaliyyət və maskalanma bacarıqlarını artırır. Şəhər şəraitində keçirilən məşğələlər isə yaxın məsafəli döyüşlərin xüsusiyyətlərini öyrədir. Bundan əlavə, paraşütlə tullanma, su maneələrinin dəf edilməsi və gecə vaxtı əməliyyatların icrası kimi xüsusi hazırlıq növləri də geniş tətbiq olunur.

XTQ-nin əsas fəaliyyət istiqamətlərindən biri də düşmənin arxa cəbhəsində icra olunan əməliyyatlardır. Bu zaman bölmələr kəşfiyyat məlumatları toplayır, strateji obyektlərə təsir göstərir və qarşı tərəfin döyüş imkanlarını zəiflədir. Belə tapşırıqların yerinə yetirilməsi yüksək koordinasiya və dəqiqlik tələb edir. Döyüşçülər həm fərdi, həm də qrup şəklində fəaliyyət göstərərək qarşıya qoyulan vəzifələri icra edirlər.

2016-cı ilin Aprel döyüşləri zamanı xüsusi təyinatlılar mühüm uğurlara imza atdılar. Qısa müddət ərzində həyata keçirilən əməliyyatlar nəticəsində bir sıra strateji yüksəkliklər nəzarət altına alındı. Bu nailiyyətlər cəbhə xəttində üstünlüyün əldə olunmasına imkan verdi. Döyüşçülərin qətiyyəti və peşəkarlığı həmin döyüşlərdə özünü açıq şəkildə göstərdi və Azərbaycan Ordusunun gücünü nümayiş etdirdi.

Aprel döyüşlərində qazanılan təcrübə sonrakı illərdə XTQ-nin hazırlıq prosesində geniş tətbiq olundu. Bu təcrübə taktiki planlaşdırmanın təkmilləşdirilməsinə, yeni yanaşmaların tətbiqinə, şəxsi heyətin bilik səviyyəsinin artırılmasına və daha böyük uğurların qazanılmasına zəmin yaratdı.

**(Ardı 6-cı səhifədə)**

# XTQ-nin yaradılmasının 27-ci ildönümü qeyd olundu





*30 aprel 2026-cı il tarixində Müdafiə Nazirliyinin xüsusi qoşun növlərindən biri olan, 27 il öncə Ulu Öndər Heydər Əliyevin müvafiq Sərəncamı ilə yaradılan Xüsusi Təyinatlı Qüvvələrin (XTQ) yaradılması günü münasibətilə tədbir keçirildi.*

Tədbirdə XTQ-nin rəhbər heyəti, hərbi qulluqçular və Respublika Hərbi Prokurorluğunun nümayəndələri iştirak etdilər.

Əvvəlcə Vətən Müharibəsi Qəhrəmanı, XTQ komandanı general-mayor Ələkbər Cahangirov, Respublika hərbi prokurorunun müavini ədliyyə polkovniki Nihat Şıxəliyev və hərbi qulluqçular hərbi hissənin ərazisində ucaldılmış Ulu Öndər Heydər Əliyevin büstünü və şəhidlərin abidəsini ziyarət etdilər, önünə əklil və tər güllər qoydular.

General-mayor Azər Qasımov XTQ komandanına hərbi hissənin yaranması günü münasibətilə şəxsi heyətin toplandığı barədə məruzə etdi. Xalqımızın Ümummilli Lideri Heydər Əliyevin və Vətənimizin müstəqilliyi, suverenliyi, torpaqlarımızın azad olunması uğrunda gedən döyüşlərdə canlarından keçən şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Azərbaycan Respublikasının Dövlət Himninin ifası ilə mərasim açıq elan olundu.

Polkovnik Fariz Sərxanov XTQ-nin yaranmasının 27-ci ildönümü münasibətilə Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənovun şəxsi heyətə təbrikini oxudu. Təbrikdə deyilir: "...Hər birinizin əzmkarlığı, peşəkarlığı və birlik ruhu sayəsində Azərbaycan Ordusu ölkəmizin müdafiəsində mühüm rol oynayır. Hərbi hissənin fəaliyyəti, zabit və əsgərlərin dövlətə bağlılığı hər zaman yüksək qiymətləndirilir. İnanıram ki, Azərbaycan Respublikasının Konstitusiyasına, Hərbi Anda və nizamnamələrə bundan sonra da sadiq qalacaq, döyüş və mənəvi-psixoloji hazırlıqda yeni uğurlar əldə edəcəksiniz. Hər birinizə möhkəm cansağlığı, uzun ömür, ailə səadəti və şərəfli xidmətinizdə uğurlar arzulayıram".

General-mayor Ə.Cahangirov çıxış edərək bildirdi ki, 27 il öncə, 1999-cu ildə müasir Azərbaycan dövlətinin memarı, Ümummilli Lider Heydər Əliyevin uzaqgörən və müdrik qərarı ilə Xüsusi Təyinatlı Qüvvələrin təməli qoyuldu. "O vaxt imzalanan fərman sadəcə bir sənəd deyildi. Bu, gələcəkdə torpaqlarımızın azad olunacağının, qazanılacaq böyük Zəfərin və Azərbaycan əsgərinin yenilməz iradəsinin müjdəsi idi".

General-mayor Ə.Cahangirov onu da qeyd etdi ki, XTQ yarandığı ilk gündən Azərbaycan Ordusunun ən çevik və ən hazırlıqlı qoşun növlərindən biri olub. "Keçən 27 il ərzində xüsusi təyinatlılar hər bir döyüş tapşırığını yüksək peşəkarlıq və fədakarlıqla yerinə yetirib. Xüsusi təyinatlı olmaq sadəcə hərbi peşəyə mənsub olmaq deyil. Bu, xüsusi bir xarakter, polad iradə, yüksək mənəviyyat və Vətənə sonsuz bağlılıq deməkdir. Siz düşmənin kabusu oldunuz. Dağları, dərələri, keçilməz sıldırım qayaları aşan, "qeyri-mümkün" tapşırıqları qanı-canı bahasına yerinə yetirən əsl qəhrəmanlarsınız. Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə 44 günlük Vətən müharibəsində yazdığınız qəhrəmanlıq dastanı bütün dünyaya Azərbaycan əsgərinin, xüsusilə də XTQ-nin gücünü, qətiyyətini və peşəkarlığını göstərdi".




XTQ komandanı dövlətimizin başçısının döyüşçülərə, şəhid ailələrinə göstərilən diqqət və qayğısından, həmçinin işğaldan azad edilmiş ərazilərdə aparılan bərpa-quruculuq işlərindən danışaraq vurğuladı ki, bu gün Qarabağ və Şərqi Zəngəzur dirçəlir, həmin torpaqlarda həyat öz axarına qayıdır. "Bu müqəddəs torpaqlarda dalğalanan üçrəngli bayrağımız sizin qəhrəmanlığınızın, qanınız və canınız bahasına qazanılmış Zəfərin rəmzidir".

"Qarabağ" ordenli polkovnik Alay Məmmədov çıxış edərək hərbi hissənin yarandığı gündən qarşıya qoyulan bütün döyüş tapşırıqlarını uğurla yerinə yetirdiyini bildirdi. "2016-cı ilin Aprel döyüşləri Azərbaycan Ordusunun gücünü, xalqımızın iradəsini və əsgərlərimizin yenilməzliyini bütün dünyaya nümayiş etdirdi. Həmin döyüşlərdə XTQ-nin şəxsi heyəti düşmənin möhkəmləndirilmiş mühəndis-istehkam xəttini yararaq strateji əhəmiyyətli yüksəklikləri azad etdi. Bu döyüşlərdə göstərilən igidlik, şücaət və qəhrəmanlıq tariximizin şanlı səhifələrinə qızıl hərflərlə yazıldı. Hər bir xüsusi təyinatlı o günlərdə cəsarətin, qeyrətin və Vətən sevgisinin rəmzinə çevrildi".



Sonra Müdafiə Nazirliyinin Hərbi Nəşriyyatının Multimedia mərkəzi tərəfindən hazırlanan XTQ-nin "Andlı döyüşçülər" sənədli filmi nümayiş olundu.

Xüsusi Təyinatlı Qüvvələrin yaranmasının 27-ci ildönümü münasibətilə şəxsi heyətin mükafatlandırılması barədə müdafiə nazirinin, müdafiə nazirinin birinci müavini - Azərbaycan Ordusunun Baş Qərargah rəisinin və "N" hərbi hissə komandirinin müvafiq əmrləri oxundu. Xidmətdə fərqlənən bir qrup hərbi qulluqçuya medal və fəxri fərman təqdim olundu.

XTQ mənsublarının iştirakı ilə hərbi hissənin ərazisində ənənəvi ağacəkmə aksiyası keçirildi, xatirə şəkli çəkdirildi.

**Bəxtiyar ƏLİYEV**
**"Azərbaycan Ordusu"**

# Azərbaycan Ordusunda psixoloji təminat tapşırıqları dövrün tələblərinə uyğun yerinə yetirilir





Azərbaycan Ordusu sağlam sosial-psixoloji sistemə və mühitə malik olub, ölkənin müdafiəsinin mühüm və ayrılmaz hissəsini təşkil edən təməl sütunlarından biridir. Elmi-texniki tərəqqinin sürətli inkişafı, təhlükəsizlik mühitində baş verən dəyişikliklər, habelə müasir müharibə və münaqişələrin xarakterində müşahidə olunan dəyişikliklər ordunun fəaliyyət mexanizmlərinin daim yenilənməsini zəruri edir. Bu istiqamətdən pre-konflikt, konflikt və postkonflikt mərhələlərində ordunun idarəetmə, hazırlıq və təminat mexanizmlərinin dövrün çağırışlarına uyğun təkmilləşdirilməsi xüsusi aktuallıq kəsb edir. Eyni zamanda, döyüş əməliyyatlarının aparılması üsullarının müasirləşdirilməsi, şəxsi heyətin təşkilati strukturunun optimallaşdırılması, normativ-hüquqi bazanın yenilənməsi, yeni təlimat, dərslik və metodiki vəsaitlərin hazırlanması ordu quruculuğunun prioritet istiqamətləri sırasında yer alır. Qeyd edilən vəzifələrin uğurla icrası yalnız struktur islahatlarla deyil, həm də yüksək peşəkarlığa, geniş dünyagörüşünə və müasir idarəetmə təfəkkürünə malik zabit heyətinin formalaşdırılması ilə mümkündür. Müasir idarəetmə sistemində zabitin yalnız peşə-ixtisas hazırlığı ilə kifayətlənməsi yetərli hesab edilmir. Onun, eyni zamanda, psixoloji biliklərə, ünsiyyət bacarıqlarına, kollektivin idarə olunması səriştəsinə və insan resurslarının səmərəli təşkili qabiliyyətinə malik olması mühüm tələb kimi çıxış edir. Komandirin tabeliyində olan şəxsi heyətin fərdi-psixoloji xüsusiyyətlərini nəzərə alması, onların motivasiya səviyyəsini düzgün qiymətləndirməsi, xidmətə adaptasiya prosesini izləməsi və sağlam mənəvi psixoloji mühit formalaşdırması bölmənin ümumi fəaliyyət nəticələrinə birbaşa təsir göstərir. Bu prosesdə psixoloqun fəaliyyəti xüsusi əhəmiyyət daşıyır. Psixoloq şəxsi heyətin sosial-psixoloji vəziyyətinin öyrənilməsi, hərbi xidmət zamanı psixoloji risk amillərinin vaxtında aşkar edilməsi, kollektivdə emosional gərginliyin azaldılması, dayanıqlığın və müsbət psixoloji mühitin formalaşdırılması, deviant davranış hallarının profilaktikası istiqamətində məqsədyönlü fəaliyyət həyata keçirir. Bununla yanaşı, onun tərəfindən aparılan psixodiaqnostik, konsultativ və profilaktik tədbirlər komandirə şəxsi heyətin idarə olunması sahəsində elmi əsaslandırılmış qərarların qəbulunda mühüm dəstək verir. Komandir ilə psixoloq arasında qurulan səmərəli əməkdaşlıq nəticəsində bölmədə intizam möhkəmlənir, qarşılıqlı etimad artır, mənəvi-psixoloji sabitlik təmin olunur və şəxsi heyətin döyüş hazırlığı yüksəlir. Nəticədə hərbi qulluqçuların yüksək psixoloji hazırlıq səviyyəsi ordunun döyüş qabiliyyətinin artırılmasına, idarəetmə effektivliyinin yüksəldilməsinə və ümumi hərbi potensialın gücləndirilməsinə əlverişli zəmin yaradır.

Azərbaycan Respublikasında ordu quruculuğu sahəsində həyata keçirilən islahatlar çərçivəsində psixoloji təminat işinin təşkili yeni keyfiyyət mərhələsinə yüksəlməklə, mühüm institusional yenilik formalaşdırıb. Belə ki, 2024-cü ilin aprelindən etibarən psixoloji iş sahəsində strateji yanaşma yenilənib, yeni konsepsiya tətbiq edilib və peşəkar kadr potensialının tərəqqisi prioritet istiqamət olaraq müəyyən edilib. Bu çərçivədə ixtisaslı psixoloqların sayının artırılması və psixoloji xidmət sisteminin təkmilləşdirilməsi istiqamətində ardıcıl tədbirlər həyata keçirilib. Azərbaycan Respublikasının müdafiə nazirinin 24 noyabr 2025-ci il tarixli müvafiq əmrinə əsasən, Şəxsi Heyət Baş İdarəsinin tabeliyində təsis edilən Psixoloji Təminat İdarəsi bu istiqamətdə sistemli və elmi əsaslara söykənən fəaliyyət mexanizminin qurulmasını təmin edib. Bu təşəbbüs təkcə struktur dəyişikliyi deyil, eyni zamanda, müasir hərbi idarəetmədə insan faktorunun prioritetləşdirilməsinin bariz nümunəsi kimi çıxış edir. Adıçəkilən strukturun yaradılması Azərbaycan Ordusunda xidmət edən hərbi qulluqçuların psixoloji dayanıqlığı, emosional sabitlik və psixi sağlamlığının sistemli şəkildə təmin olunmasına yönəlmiş kompleks və institusional mexanizmin formalaşıb təkmilləşdirilməsi baxımından atılmış mühüm addımlardan hesab olunur.

Yeni yaradılan Psixoloji Təminat İdarəsinin fəaliyyət istiqaməti üç əsas hissədən ibarətdir:

- psixoloji işin planlaşdırılması və təşkili;
- psixoloji işin monitorinqi və koordinasiya;
- psixoloji işin təhlili və statistikası.

İdarə tərkibində fəaliyyət göstərən struktur bölmələrin qarşılıqlı əlaqə və koordinasiyası əsasında Azərbaycan Ordusunda psixoloji təminat sisteminin səmərəli və davamlı fəaliyyətini təmin edən vahid institusional mexanizm kimi çıxış edir. Şöbələrin funksional inteqrasiyası Azərbaycan Ordusunda psixoloji işin planlaşdırılması, təşkili və həyata keçirilməsi prosesində çevik koordinasiyanı təmin etməklə yanaşı, analitik nəzarət mexanizmlərinin tətbiqinə imkan yaradır. Bu isə psixoloji işin operativ idarə edilməsini, mövcud çağırışlara adekvat reaksiya verilməsini, fəaliyyətin müntəzəm qiymətləndirilməsini və nəticəyönümlü inkişafını özündə ehtiva edir. Formalaşdırılmış funksional vəhdət psixoloji işin operativ idarə edilməsini təmin etməklə, fəaliyyətə sistemli nəzarətin həyata keçirilməsinə və nəticələrin obyektiv qiymətləndirilməsinə imkan verir.

Azərbaycan Ordusunda hərbi xidmətə qəbul edilən bütün hərbi qulluqçular psixoloqlar tərəfindən kompleks şəkildə psixoloji öyrənilməyə cəlb edilir və sistemli qaydada qeydiyyata alınaraq, onların hərbi xidmətə uyğunlaşmasının təmin olunması istiqamətində fəaliyyətlər təşkil olunur. Həyata keçirilmiş çoxşaxəli analitik fəaliyyətlərin nəticələrinə əsasən müəyyən edilib ki, hərbi qulluqçuların psixoemosional vəziyyətinin formalaşmasında ailə rifahı və ailədaxili münasibətlər sistemi mühüm determinant kimi çıxış edir. Aparılan qiymətləndirmələr göstərir ki, hərbi xidmət prosesində qarşıya çıxan sosial-psixoloji çətinliklər və stressorlar əksər hallarda ailə mühitinə transfer olunur, eyni zamanda, ailədaxili disfunksiyalar və gərginliklər isə geri təsir mexanizmi vasitəsilə hərbi qulluqçunun xidməti fəaliyyətinə, adaptasiya səviyyəsinə və psixoloji dayanıqlığına birbaşa sirayət edir. Bu qarşılıqlı təsir dinamikasının sistemli təhlili əsasında belə qənaətə gəlinib ki, hərbi qulluqçuların psixoloji təminatının optimallaşdırılması məqsədilə ailə institutunun psixoloji baxımdan inteqrasiyası və dəstəklənməsi zəruri istiqamət kimi formalaşır. Məhz bu kontekstdə hərbi qulluqçuların ailə üzvlərinin psixoloji maarifləndirilməsi, konsultativ dəstək və preventiv müdaxilə mexanizmlərin institusional çərçivədə təşkili üçün hərbi psixoloji sağlamlıq mərkəzlərinin yaradılması obyektiv zərurət və strateji əsaslandırılmış təşəbbüs kimi meydana çıxır.



Psixoloji Təminat İdarəsinin əsas fəaliyyət istiqamətlərindən danışdıqda aşağıdakıları mütləq qeyd etmək lazımdır:

- Azərbaycan Ordusunda psixoloq vəzifəsində xidmət edən zabitlərin bilik və bacarıqlarının artırılması üçün davamlı kursların (təlimlərin) və Superviziyaların təşkil olunması, o cümlədən onların ali təhsil müəssisələrində növbəti təhsil pilləsində təhsil almaları üçün müvafiq köməkliyin göstərilməsi;
- hərbi hissələrdə psixoloq vəzifəsində xidmət edən zabitlərin xidmət şəraitinin spesifikliyi, yüksək məsuliyyət və əməliyyat mühitində fəaliyyət göstərmələri əsas götürülməklə, həmin vəzifələr üzrə aylıq gəlirlərinin mülki sahədə fəaliyyət göstərən həmkarları ilə müqayisədə daha yüksək müəyyən edilməsi imkanına baxılması;
- vakant psixoloq vəzifələrinin komplektləşdirilməsi üçün mülki ixtisaslı psixoloqların hərbi vəzifələrə təyin edilməsinə icazə verilməsi və s.

Eyni zamanda, Psixoloji Təminat İdarəsi tərəfindən ixtisaslı psixoloqların peşəkar inkişafının davamlılığını təmin etmək məqsədilə müvafiq tarixlərdə "Superviziya" fəaliyyəti təşkil edilib, bu çərçivədə klinik hallar müzakirə olunub, psixoterapevtik yanaşmaların tətbiqi üzrə metodiki və praktiki dəstək göstərilib. Türkiyə Respublikasından dəvət olunmuş mütəxəssislərlə əməkdaşlıq çərçivəsində Azərbaycan Ordusunda xidmət edən psixoloqlarla müxtəlif mövzular üzrə ixtisasartırma təlimləri keçirilib və iki il ərzində 20-dən çox mövzuda 7000-dən çox müxtəlif kateqoriyadan olan hərbi qulluqçuların psixoloji maarifləndirilməsi nəzərdə tutulub. Hal-hazırda müvafiq təlim keçmiş psixoloqlar hərbi hissələrdə psixoloji təminat tapşırıqlarının icrasında fəaliyyətləri səmərəli şəkildə təşkil edirlər.

Keçirilən kurslardan və seminarlardan danışarkən mütləq qeyd etmək lazımdır ki, bu tədbirlərdə "Psixologiyanın əsasları", "Obsessiv-kompulsiv pozuntu", "Mənlik duyğusu", "Koqnitiv nəzəriyyə", "Koqnitiv modelə giriş", "Müxtəlif psixoloji pozuntular (depressiya, təşviş pozuntusu, fobiya və s.) zamanı bu üsulun tətbiqi mexanizmləri", "Travmada neyropsixoloji yanaşmalar", "Şəxsiyyət pozuntuları", "Black-board terapiya", "Patologiya olmayan psixoloji problemlər", "Trans altında psixoterapiya üsulları" mövzularında dinləyicilərə ətraflı məlumatlar çatdırılıb. Təlim seansları zamanı psixoloqların diqqət yetirməli olduqları məqamlara aydınlıq gətirilib. Həmçinin dinləyicilərin iştirakı ilə praktik çalışmalar yerinə yetirilərək, əldə olunan biliklər daha da möhkəmləndirilib. Təlim zamanı dinləyicilər disfunksional fikirlər, davranış və emosiyalara bağlı olan problemlərin həllinə yönələn psixoterapevtik müalicə üsulunun baza biliklərinə yiyələniblər. Psixologiya sahəsində daim baş verən yenilikləri nəzərə alaraq, bu cür təlimlərin keçirilməsi orduda xidmət edən psixoloqların peşəkarlıq səviyyəsinin artırılmasında müstəsna əhəmiyyətə malikdir. Təlimdə planlaşdırılmış mövzuları əhatə edən psixologiyanın təməl prinsipləri, insan davranışlarının elmi izahı və psixoloji müdaxilə üsulları barədə məlumat verilib, döyüş və ekstremal şəraitdə travma yaşayan hərbi qulluqçuların psixoloji vəziyyətinin neyropsixoloji aspektləri və onlara effektiv dəstək metodları, həmçinin dərin psixoloji problemlərin aradan qaldırılmasında psixoterapiyada trans vəziyyətindən istifadənin effektivliyi və tətbiq metodları izah edilib, hərbi qulluqçular arasında geniş yayılan, lakin klinik patologiya hesab edilməyən psixoloji problemlərin korreksiya yolları müzakirə olunub.

**(Ardı 6-cı səhifədə)**

# "Məşğələlər hərbi qulluqçuların peşəkarlıq səviyyəsini artırır"





(Əvvəli 1-ci səhifədə)

Məlumdur ki, erməni silahlı birləşmələri ərazilərimizi minalayarkən, mülki əhalini də hədəfə alırdılar. Müxtəlif partlayıcı qurğularla çirklənən evlərin, məzarlıqların, su hövzələrinin təmizlənməsi üçün yaradılan mina və əldəqayırma partlayıcı maddələrlə mübarizə bölmələrinin şəxsi heyəti müvafiq kurslar keçdikdən sonra bu ərazilərdə partladıcı qurğuların zərərsizləşdirilməsi üzrə fəaliyyətləri yerinə yetirdilər.

Aşkar olunan döyüş sursatları təlim mərkəzlərində təhlükəsizlik qaydalarına ciddi riayət etməklə həm partlayış, həm də yandırma üsulları ilə zərərsizləşdirilir.

Bundan başqa, azad olunmuş ərazilərimizdə iqlim relyefinin sərt olması həmin ərazilərdə istifadə olunan yolların istər qış, istərsə də digər mövsümlərdə daim işlək vəziyyətdə saxlanılmasını, avtomobil və döyüş texnikası kolonlarının təhlükəsiz və fasiləsiz hərəkətini tələb edirdi. Mühəndis bölmələri tərəfindən bu istiqamətdə də zəruri tədbirlər plana uyğun olaraq icra olundu və bu gün də yerinə yetirilməkdədir. Eyni zamanda, tərtiblənmə yerlərində bölmələrimizin fortifikasiya işləri və mühəndis təminatı tapşırıqlarının icrası uğurlu şəkildə həyata keçirilir.







Bu gün də Mühəndis Qoşunlarının hissə və bölmələri Vətən müharibəsi və ondan sonrakı əməliyyatlar, eləcə də dünyanın müxtəlif yerlərində baş verən silahlı münaqişələrin təcrübəsi nəzərə alınmaqla, mühəndis təminatı üzrə tapşırıqları yüksək səviyyədə icra edirlər.

Mühəndis Qoşunları bölmələrinin şəxsi heyəti ilə keçirilən məşğələləri işıqlandırmaq məqsədilə "N" hərbi hissəsinin Mühəndis-İstehkam Mərkəzində yaradılmış şəraitlə tanış olduq.

Diqqətimizi kiçik mütəxəssislərin hazırlanması və ərazinin minalardan təmizlənməsi üçün müasir standartlara cavab verən simulyator sistemləri cəlb etdi.



Hərbi hissənin zabiti mayor Elman Tağıyev məlumat üçün bildirdi ki, mühəndis təminatı üzrə tapşırıqları yerinə yetirmək üçün mütəmadi olaraq, şəxsi heyətlə döyüş hazırlığı məşğələləri keçirilir. "Yeni quraşdırılan simulyatorlar uzunmüddətli akademik tədqiqatların və inkişaf etmiş fizika mühərriklərinin istifadəsi nəticəsində, real maşın üzərində aparılmış genişmiqyaslı test və ölçmə metodları ilə təsdiqlənmiş, yüksək dəqiqlikli və real dinamik xüsusiyyətlərə malikdir. Maddi-texniki təminatın gücləndirilməsi məqsədilə silahlanmaya daxil edilmiş mühəndis silahlandırma vasitələri və müasir mexaniki minatəmizləmə avadanlıqları yüksək taktiki-texniki göstəricilərə və geniş tətbiq imkanlarına qadirdir".

Fürsətdən istifadə edib simulyatorlarda praktiki dərslərə cəlb olunmuş heyətin fəaliyyətini də izlədik, onlarla həmsöhbət olduq.

Vətən müharibəsi zamanı texnikaların döyüş meydanından təxliyə olunması tapşırıqlarını icra edən gizir Tural Tağıyev bildirdi ki, istənilən şəraitdə qarşıya qoyulmuş mühəndis təminatı tapşırıqlarını yerinə yetirmək üçün praktiki vərdişlərimizi daim artırmalıyıq. "Gördüyünüz kimi, mütəmadi olaraq dərslər keçirik. Dərslər zamanı öyrəndiklərimizi praktik olaraq icra edirik. Hər birimiz vəzifəmizin məsuliyyətini dərindən dərk edirik".

Təlimatçı gizir İsgəndər Bəhramov qeyd etdi ki, plana uyğun olaraq heyətə texniki hazırlıq və mühəndis hazırlığı üzrə dərslər keçirilir. "Ərazidə keçirilən praktiki dərslərdə mühəndis texnikası və avadanlıqlarının taktiki-texniki xüsusiyyətləri aşılanır. Bundan başqa, hərbi qulluqçular müasir simulyatorlarda kolon yollarının çəkilməsi, xəndəklərin, səngərlərin və çalaların doldurulması, qalaqlardan keçidlərin açılması və təminat yollarının qardan təmizlənməsi üzrə mühəndis tapşırıqlarını yerinə yetirməklə praktiki vərdişlərini təkmilləşdirirlər. Həmçinin səngərlərin, kiçik çalaların qazılması, yükləmə və boşaltma işlərinin yerinə yetirilməsi, materialların yükləyici təknə vasitəsilə kiçik məsafələrə daşınması və digər fəaliyyətlər də praktiki olaraq icra olunur. Tamamilə orijinal nəqliyyat vasitəsi avadanlıqları ilə təchiz olunan simulyatorlar real maşın idarəetmə hissini verir".





Təlimatçı hərbi qulluqçumuz sözünə davam edərək bildirdi ki, şəxsi heyətə, həmçinin simulyatorlarda realistik dərslərlə virtual iş mühitində düzgün operator texnikasını, maşın idarəetməsini və təhlükəsiz əməliyyat qaydaları da öyrədilir. Digər otaqda hərbi qulluqçular təlimatçı zabit Güman Əliyevin nəzarəti altında müasir minaaxtarma simulyatoru ilə fəaliyyətləri yerinə yetirdilər. Zabit qeyd etdi ki, xüsusi hazırlanmış hissədə istehkamçılar ərazinin kəşfi, minaaxtaranlar vasitəsilə minaların və partlamamış döyüş sursatlarının aşkar edilməsi mövzusunda fəaliyyətlər üzrə bacarıqlarını praktiki təkmilləşdirirlər. "Bölmələrdə olan müasir avadanlıqlar keçirilən dərsin effektliyini daha da artırır. Məşğələlərdə əsas məqsəd hərbi qulluqçuların peşəkarlıq səviyyəsinin, eləcə də silahlanmada olan müasir mühəndis texnikası və avadanlıqlarından effektiv tətbiqi, istismarı üzrə bacarıqlarının artırılmasıdır".

Hərbi qulluqçular da yaradılan bu şəraitdən səmərəli istifadə edərək onlara təhkim olunan qurğunun taktiki-texniki xüsusiyyətlərini, ərazidə tətbiqi imkanlarını öyrənirlər.

Bölmədə yaradılan şərait, hərbi qulluqçularla söhbətlərimizdən sonra bir daha əmin oluruq ki, ordumuzun digər bölmələri kimi, Mühəndis Qoşunlarının hissə və bölmələri də öz praktiki vərdişlərini təkmilləşdirməklə işğaldan azad olunmuş ərazilərdə həyata keçirilən genişmiqyaslı yenidənqurma, bərpa və abadlıq işlərinin aparılmasına mühüm töhfə verirlər.

**Baş leytenant Elçin İMANOV**
**"Azərbaycan Ordusu", fotolar kiçik gizir Vüsal HƏMİDOVUNDUR**

# Azərbaycan Ordusunda kibertəhlükəsizlik üzrə mütəxəssislərin peşəkarlığı artırılır








Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müvafiq Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının informasiya təhlükəsizliyi və kibertəhlükəsizliyə dair 2023 - 2027-ci illər üçün Strategiyası"nda informasiya təhlükəsizliyi və kibertəhlükəsizlik üzrə kadr hazırlığının və ixtisaslaşmış struktur bölmələrin müvafiq kadrlarla təminatının gücləndirilməsi əsas prioritet istiqamətlərdən biri kimi müəyyən edilib.

Müdafiə Nazirliyi xəbər verir ki, bu istiqamətdə həyata keçirilən ardıcıl tədbirlər çərçivəsində Azərbaycan Respublikası Müdafiə Nazirliyi və Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin birgə təşkilatçılığı ilə Azərbaycan Ordusunun kibertəhlükəsizlik üzrə mütəxəssisləri üçün "İdarəetmə, risklərin idarə olunması və uyğunluq (GRC - Governance, Risk, Compliance)" üzrə təlim kursu keçirilib.

İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyinin tabeliyində Azərbaycan Kibertəhlükəsizlik Mərkəzinin "CyberCollab" layihəsi çərçivəsində təşkil edilən kursun əsas məqsədi iştirakçıların kibertəhlükəsizlik sahəsində idarəetmə, risklərin idarə olunması və uyğunluq istiqamətləri üzrə bilik və bacarıqlarının artırılması, eləcə də beynəlxalq təcrübələrə uyğun yanaşmaların tətbiqinə dəstək verməkdir.

Təlim proqramı müddətində iştirakçılara GRC istiqamətinin əsas prinsipləri, risklərin qiymətləndirilməsi metodologiyaları, normativ tələblərə uyğunluğun təmin edilməsi, eləcə də təşkilati səviyyədə kiber risklərin effektiv idarə olunması mexanizmləri barədə ətraflı məlumat verilib.

İnteraktiv formatda keçirilən təlim kursu zamanı nəzəri biliklərlə yanaşı, real iş mühitinə uyğun ssenarilər əsasında iştirakçıların peşəkar bacarıqlarının inkişafına xüsusi diqqət yetirilib.

# Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 103-cü ildönümünə həsr olunmuş minifutbol üzrə birincilik start götürüb







*Müdafiə nazirinin birinci müavini - Azərbaycan Ordusunun Baş Qərargah rəisinin təsdiq etdiyi plana əsasən, Müdafiə Nazirliyinin Baş idarə və idarələri arasında xalqımızın Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının 103-cü ildönümünə həsr olunan minifutbol üzrə birinciliyə start verilib.*

Müdafiə Nazirliyi xəbər verir ki, əvvəlcə birinciliyin püşkatma mərasimi keçirilib. Mərasimdə iştirakçı komandaların nümayəndə heyətləri, hakimlər və komissiyanın üzvləri iştirak ediblər.

Qeyd edək ki, yarışda ümumilikdə 15 komanda mübarizə aparır.

Oyunlar Azərbaycan Ordusunun hərbi qulluqçusu, Azərbaycan Futbol Federasiyaları Assosiasiyasının (AFFA) referisi Nail Nağıyev və MOİK-in qurumlar üzrə baş məşqçisi Elnur Əliyev tərəfindən idarə olunur.

Qrup oyunları başa çatdıqdan sonra hər qrupda 1-ci və 2-ci yerləri tutan komandalar yarımfinal mərhələsinə yüksələcəklər. Bu mərhələnin qalibləri birincilik uğrunda final görüşündə mübarizə aparacaqlar. Sonda qalib komandalar mükafatlandırılacaqlar.

*Təlim*

# “Silahı daha yaxşı öyrənməliyik”

**(Əvvəli 1-ci səhifədə)**

Baş çavuş P.Məmmədov Gədəbəy rayonunda anadan olub. O, 10 ildən artıqdır ki, ordu sıralarında xidmət edir. İkinci Qarabağ müharibəsi zamanı Polad Gədəbəy rayonunun Ermənistanla sərhəd hissəsində Vətənin müdafiəsində dayanıb. Döyüşdə məğlub olan düşmən Poladgilin olduğu mövqeləri artilleriya qurğularından atəşə tutub. Ermənilər həmin istiqamətdə hücum etməsə də, tez-tez onların müdafiə olunduğu postu gərginlikdə saxlamaqda davam edib. Polad dedi ki, o zaman onun da olduğu bölmənin döyüş tapşırığı düşmənin fəaliyyətini izləmək, ehtimal olunan hücum cəhdinin qarşını almaq idi. "Əsas döyüşlərin getdiyi istiqamətdə silahdaşlarımız torpaqlarımızı işğaldan azad etmək üçün döyüşür, düşmənə qan uddururdu. Düşmən ordumuzun gücü qarşısında tab gətirə bilmirdi. İşğal altında olan yurd yerlərimiz azad olunduqca bizim də qələbə olan inamımız artırdı".

Baş çavuş P.Məmmədov tank əleyhinə qurğunun heyət komandiri kimi tabeliyində olan heyət nəfərlərinə silahın sirlərini aşılaya bilib. Bu illər ərzində neçə-neçə müddətli əsgərləri öyrədib. Onlar dərs cədvəlinə uyğun olaraq praktiki atışlar da icra ediblər.

Tuşlayıcı əsgər Ziya Qurbanlı Qobustan rayonundan ordu sıralarına çağırılıb. Ali təhsillidir. Tank əleyhinə qurğunun heyət üzvü kimi silah haqqında biliklərə yiyələnib. Əsgər Z.Qurbanlı dedi ki, tank əleyhinə qurğudan bir neçə dəfə təlim atış çalışması da yerinə yetirib.

Heyət nəfəri əsgər Məhəmməd Əliyev də ali təhsillidir. O Azərbaycan Dövlət İqtisad Universitetinin məzunudur. Vətən qarşısında övladlıq borcunu yerinə yetirməkdən qürur duyduğunu dedi.



Heyət üzvü olduğu tank əleyhinə qurğuya gəlincə bildirdi ki, gənc əsgər hazırlığı dövründə silahla bağlı ilkin biliklərə yiyələnib. "Bizə təhkim olunan silahın taktiki-texniki xüsusiyyətlərini, istifadə qaydalarını dərindən öyrənməliyik. Bunun üçün də keçirilən məşğələlərdə həvəslə iştirak edir, komandirlərimiz tərəfindən aşılananları daha yaxşı mənimsəməyə çalışırıq".

Əsgər Elcan İbrahimov da heyət üzvüdür. Tank əleyhinə bölmədə xidmət etmək onun üçün maraqlıdır. Atıcı silahlarla bağlı hələ orta məktəbdə oxuduğu illərdə dolğun məlumat alıb. Bu gün isə hərbi xidmətdə tank əleyhinə qurğunun heyət nəfəridir, hətta həmin silahdan təlim atış çalışmasını da yerinə yetirib. Qurğu haqqında lazımi biliyə malik olduğu üçün özünü rahat hiss edir. Elcan dedi ki, onun üzvü olduğu heyətə verilən tapşırığı heç bir çətinlik çəkmədən istənilən an düzgün və vaxtında yerinə yetirməyə hazırdır.

Heyət baş çavuş P.Məmmədovun nəzarəti altında heyət tank əleyhinə silahın taktiki-texniki xüsusiyyətlərini öyrənməklə ondan istifadə qaydalarını təkrarlayır. Əsgərlər tank əleyhinə qurğunu "səfərə" vəziyyətindən "döyüşə" vəziyyətinə gətirməklə hər an döyüş tapşırığını yerinə yetirməyə qadir olduqlarını təsdiq etdilər. Biz məşğələ yerindən ayrılanda heyət hələ də dərsə davam edir, bilik və bacarıqlarını artırırdı.

**Bəxtiyar ƏLİYEV**
**"Azərbaycan Ordusu"**



# Vətənə sədaqətim şərəfimdir!

(Əvvəli 2-ci səhifədə)

2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsi zamanı Xüsusi Təyinatlı Qüvvələr ən çətin istiqamətlərdə fəaliyyət göstərdi. Dağlıq və meşəlik ərazilərdə aparılan əməliyyatlar, düşmənin möhkəmləndirilmiş müdafiə xətlərinin yarılması və mühüm mövqelərin ələ keçirilməsi bu bölmələrin üzərinə düşürdü. Döyüşçülər çətin şəraitdə irəliləyərək yaşayış məntəqələrinin azad edilməsində iştirak etdilər. Bu fəaliyyət qələbənin təmin olunmasında mühüm rol oynadı.

Müharibədən sonrakı dövrdə hazırlıq prosesi daha da intensivləşdirildi. Müxtəlif mövzular üzrə taktiki-xüsusi təlimlər keçirildi. "Dərin qar və şiddətli soyuqlarda döyüş əməliyyatlarının aparılması" mövzusunda təşkil olunan təlimlər zamanı xüsusi təyinatlılar əməliyyat rayonunun dərinliyinə sızaraq, şərti düşmənin diversiya qruplarını zərərsizləşdirdilər. Yüksək dağlıq ərazilərdə hərəkət qaydaları, sıldırım yamacların aşılması və çətin keçilən sahələrdə fəaliyyət bacarıqları məşq etdirildi.

Müxtəlif təlimlərdə qarlı-şaxtalı hava şəraitində xizəkli vasitələrlə yerdəyişmə, pusqu və dayaq məntəqələrinin ələ keçirilməsi kimi tapşırıqlar icra edildi. Döyüş qrupları şəklində fəaliyyət göstərən bölmələr həmlə obyektlərini nəzarətə götürərək, qarşı tərəfin təminat yollarını bağladı. Bu cür məşqlər şəxsi heyətin ekstremal şəraitdə fəaliyyət qabiliyyətini artırır.

Snayperlərin hazırlığı da xüsusi diqqət mərkəzində saxlanılır. Onlar fərdi və cütlük şəklində hərəkət, atəş mövqeyinin seçilməsi, maskalanma və müxtəlif məsafələrdə yerləşən hədəflərə dəqiq atəşaçma bacarıqlarını inkişaf etdirirlər. Bu istiqamətdə keçirilən məşqlər döyüş tapşırıqlarının uğurla icra olunmasına mühüm təsir göstərir.

XTQ bölmələri ilə keçirilən digər mərhələli təlimlər zamanı kəşfiyyat tapşırıqları və xüsusi əməliyyatlar icra olunur. Aviasiya, artilleriya və pilotsuz uçuş aparatlarının dəstəyi ilə müəyyən edilmiş ərazilərin nəzarətə götürülməsi üzrə fəaliyyətlər yerinə yetirilir. Eyni zamanda, yüksək dağlıq və meşəlik ərazilərdə çətin manelərin dəf edilməsi üzrə şəxsi heyətin bacarıqları təkmilləşdirilir.

Beynəlxalq əməkdaşlıq çərçivəsində keçirilən tədbirlər də XTQ-nin fəaliyyətində mühüm yer tutur. "Sarsılmaz Tərəfdaşlıq-2025" birgə təlimi zamanı Azərbaycan və Birləşmiş Ərəb Əmirliklərinin xüsusi təyinatlıları arasında qarşılıqlı fəaliyyət və təcrübə mübadiləsi həyata keçirilir. Təlim çərçivəsində atəş hazırlığı, desant əməliyyatları, snayper fəaliyyəti və yaşayış məntəqələrinin təmizlənməsi kimi tapşırıqlar icra olunur. Bu cür tədbirlər hərbi qulluqçuların peşəkarlığının artırılmasına xidmət edir.

Ölkəmizdə keçirilən "Üç qardaş-2021" beynəlxalq təlimi də xüsusi əhəmiyyətə malikdir. Azərbaycan, Türkiyə və Pakistan xüsusi təyinatlılarının iştirakı ilə keçirilən bu təlim qarşılıqlı əməkdaşlığın gücləndirilməsi baxımından mühüm rol oynayıb. Təlim zamanı iştirakçılar müxtəlif ssenarilər üzrə tapşırıqları yerinə yetirərək, praktiki vərdişlərini artırıblar. Bu cür tədbirlər ölkələr arasında hərbi əlaqələrin möhkəmlənməsinə töhfə verir.




Xüsusi Təyinatlı Qüvvələrin fəaliyyətində mənəvi dəyərlər də mühüm yer tutur. Vətənə bağlılıq, Hərbi Anda sədaqət və yüksək məsuliyyət hissi hər bir döyüşçünün əsas xüsusiyyətlərindəndir. Bu keyfiyyətlər onların çətin şəraitdə belə tapşırıqları uğurla yerinə yetirməsinə imkan verir.

Bu gün Xüsusi Təyinatlı Qüvvələr Azərbaycan Ordusunun ən peşəkar və güclü birləşmələrindən biri kimi fəaliyyət göstərir. Onların keçdiyi inkişaf yolu, qazandıqları təcrübə və əldə etdikləri nailiyyətlər bu qüvvələrin yüksək səviyyədə formalaşdığını göstərir. Müasir çağırışlara uyğunlaşan bu bölmələr gələcəkdə də dövlətimizin təhlükəsizliyinin qorunmasında mühüm rol oynayacaq.

Xüsusi Təyinatlı Qüvvələrin tarixi böyük fədakarlıq və qəhrəmanlıq nümunələri ilə zəngindir. Onların xidmət yolu Azərbaycan Ordusunun gücünü və qətiyyətini əks etdirir. Əminik ki, qarşıda duran vəzifələrin layiqincə yerinə yetirilməsi üçün bu qüvvələr bundan sonra da öz fəaliyyətini yüksək səviyyədə davam etdirəcək.

**Baş leytenant**
**Əli ABIYEV**
**"Azərbaycan Ordusu"**

# Azərbaycan Ordusunda psixoloji təminat tapşırıqları dövrün tələblərinə uyğun yerinə yetirilir

(Əvvəli 3-cü səhifədə)

Psixoloji Təminat İdarəsinin bilavasitə tabeliyində fəaliyyət göstərməsi nəzərdə tutulan Bakı Hərbi Psixoloji Sağlamlıq Mərkəzi hərbi qulluqçuların və onların ailə üzvlərinin psixoloji rifahının qorunması və inkişaf etdirilməsi məqsədilə yaradılıb. Bakı Hərbi Psixoloji Sağlamlıq Mərkəzində aşağıdakı psixoloji xidmətlərin həyata keçirilməsi nəzərdə tutulub:
- fərdi psixoterapiya;
- qrup psixoterapiyası;
- psixoloji diaqnostika;
- psixoloji konsultasiya;
- stress və travma sonrası psixoloji bərpa;
- uşaq və yeniyetmələrin psixoloji inkişafının dəstəklənməsi.

Psixoloq otaqlarından üçü uşaq (biri loqoped otağı olmaqla), digərləri yeniyetmələrlə psixoloji iş üçün xüsusi təyinatlıdır. Mərkəzdə mövcud olan loqopedik otağının uşaqlarda nitq, dil və kommunikasiya pozuntularının diaqnostikası və korreksiyası məqsədilə fəaliyyət göstərməsi planlaşdırılır.

Psixoloji xidmətlər aşağıdakı yaş kateqoriyaları üzrə təşkil olunur:
- 4-8 yaş uşaqlar;
- 9-12 yaş uşaqlar;
- 13-18 yaş yeniyetmələr və böyüklər.

Qeyd etmək lazımdır ki, bu formatda fəaliyyət göstərən institusional model postsovet məkanında, eləcə də qardaş Türkiyə Respublikasında belə analoqu olmayan innovativ bir strukturdur. Bu təşəbbüs regionda hərbi psixoloji dəstək sisteminin inkişafında yeni mərhələnin başlanğıcı kimi qiymətləndirilə bilər.



Mərkəzdə fəaliyyət göstərəcək psixoloqların seçilməsinə və onların bu fəaliyyətlər üçün hazırlanmasına xüsusi önəm verilib. Bu proses çərçivəsində mütəxəssislər:
- beynəlxalq səviyyədə tanınmış psixoterapevtik məktəblər üzrə təlimlərə;
- müxtəlif metodoloji istiqamətlər üzrə praktiki kurslara;
- peşəkar Superviziya proqramlarına cəlb edilib və nəticədə yüksək peşəkar kompetensiyaya malik mütəxəssislər formalaşdırılıb.

Hazırda mərkəzdə fəaliyyət göstərəcək psixoloqların hazırlıq səviyyəsi ölkədə fəaliyyət göstərən qabaqcıl psixoloji xidmət mütəxəssisləri ilə rəqabət aparacaq səviyyədə qiymətləndirilir.

Bu gün Azərbaycan Ordusunun qoşun növləri, birlik, birləşmə və hərbi hissələrində, həmçinin xüsusi təyinatlı təhsil müəssisələri, idarə və təşkilatlarda psixoloji təminat üzrə fəaliyyətlərin icrası sistemli şəkildə təşkil olunur və daim nəzarətdə saxlanılır.

Müasir dövrün tələblərinə uyğun olaraq, bu sahədə elmi əsaslandırılmış yanaşmalar, qabaqcıl beynəlxalq təcrübədən geniş istifadə edilir. Psixoloji təminat üzrə xidmət aparan mütəxəssislər tərəfindən planlı monitorinqlər, fərdi və qrup şəklində psixoloji seanslar, psixodiaqnostik qiymətləndirmələr, psixoloji maarifləndirmə tədbirləri, psixoprofilaktik proqramlar həyata keçirilir.



Görülən məqsədyönlü fəaliyyətlər nəticəsində şəxsi heyətin psixoloji dayanıqlığının möhkəmləndirilməsi, stresə davamlılığın artırılması, xidmət motivasiyasının gücləndirilməsi, kollektiv münasibətlərdə sağlam psixoloji mühitin formalaşdırılması və risk amillərinin vaxtında aşkar olunaraq, aradan qaldırılması istiqamətində mühüm nəticələr əldə edilir. Bu tədbirlər yalnız hərbi qulluqçuların psixoloji sağlamlığının qorunmasına deyil, eyni zamanda, onların peşəkar hazırlıq səviyyəsinin, intizamının, qərarvermə qabiliyyətinin və döyüş tapşırıqlarının yüksək məsuliyyətlə icraetmə bacarığının yüksəlməsinə bilavasitə təsir göstərir. Müasir təhlükəsizlik çağırışları, informasiya təsirləri, hibrid təhdidlər və yüksək emosional gərginlik tələb edən xidmət şəraiti psixoloji təminat sisteminin daha da təkmilləşdirilməsini strateji zərurətə çevirir. Bu baxımdan Psixoloji Təminat İdarəsinin yaradılması Azərbaycan Ordusunda insan amilinə verilən yüksək dəyərin, şəxsi heyətin rifahına göstərilən diqqətin bariz nümunəsidir. Yeni idarənin fəaliyyəti psixoloji işin vahid konsepsiya əsasında əlaqələndirilməsinə, resursların səmərəli idarə olunmasına, peşəkar kadr potensialının gücləndirilməsinə və bütün qoşun növləri üzrə psixoloji iş fəaliyyətinin daha çevik təşkilinə geniş imkanlar yaradır. Eyni zamanda, bu strukturun formalaşdırılması gələcəkdə hərbi psixologiya sahəsində elmi tədqiqatların genişlənməsinə, milli metodoloji bazanın zənginləşdirilməsinə, qabaqcıl təcrübələrin tətbiqinə və psixoloji təminatın keyfiyyətcə yeni mərhələyə yüksəlməsinə təkan verəcəkdir. Psixoloji təminat sahəsində atılan hər bir addım, əslində, ordunun döyüş hazırlığının, idarəetmə çevikliyinin və ümumi müdafiə potensialının gücləndirilməsinə xidmət edir.

Nəticə etibarilə, Psixoloji Təminat İdarəsinin yaradılması təkcə yeni struktur vahidinin təşkili deyil, Azərbaycan Ordusunda müasir, dayanıqlı və insan mərkəzli idarəetmə modelinin formalaşdırılmasının mühüm göstəricisidir. Müasir çağırışlar fonunda psixoloji təminat sisteminin davamlı təkmilləşdirilməsi, peşəkar kadr hazırlığı və innovativ yanaşmaların tətbiqi ordunun ümumi hazırlıq səviyyəsini yüksəltməklə, həm fərdi hərbi qulluqçuların rifahına, həm də bütövlükdə rəşadətli Azərbaycan Ordusunun güclənməsinə öz töhfəsini verir.

**Kapitan**
**Fuad CƏFƏROV**
**"Azərbaycan Ordusu"**

# Azərbaycan Ordusunun şəxsi heyəti ilə keçirilən ictimai-siyasi hazırlıq dərsi

## (İctimai-siyasi hazırlıq dərsinin qrup rəhbərinə kömək)

**Mövzu: 1941-1945-ci illərdə alman faşizminə qarşı aparılan mübarizədə Azərbaycan xalqının rolu.**

**Suallar:**

1. Almaniyanın SSRİ üzərinə qəflətən hücumu və müharibənin başlanması.
2. Azərbaycan İkinci Dünya müharibəsi illərində.
3. Azərbaycanlıların alman faşistlərinə qarşı döyüşlərdə qəhrəmanlıqları.

### Almaniyanın SSRİ üzərinə qəflətən hücumu və müharibənin başlanması

İkinci Dünya müharibəsi illəri bəşəriyyətin XX əsrdə üzləşdiyi ən ağır və dəhşətli dövrü olmuşdur. Dünya ağalığı iddiasında olan alman faşizmi öz niyyətlərinə çatmaq məqsədilə 1939-cu il sentyabrın 1-də Polşaya hücum etməklə İkinci Dünya müharibəsinə başladı. 1941-ci il yayına qədər artıq alman faşistləri, demək olar ki, bütün Avropanı, Polşanı, Avstriyanı, Çexoslovakiyanı, Yuqoslaviyanı, Yunanıstanı, bütövlükdə Avropanın bir neçə ölkəsini və Fransanın xeyli hissəsini zəbt etmişdilər. Onlar Avropanın təqribən 290 milyon nəfər əhali yaşayan 2 milyon kvadrat kilometr ərazisini ələ keçirmişdilər. Almaniya 1940-cı ilin ikinci yarısında SSRİ-yə "Barbarossa" adlı hücum planı hazırlamış və məqsədi 1941-ci ilin payızına qədər SSRİ-ni diz çökdürmək olmuşdur.

Faşist Almaniyası 23 avqust 1939-cu ildə imzalanmış, 10 il müddətinə hücum etməmək, dostluq və əməkdaşlıq haqqında müqavilələrini pozaraq, 1941-ci il iyunun 22-də bütün sərhəd boyu SSRİ üzərinə hücuma keçdi. Bu, Rusiyanın sovet dövrü tarixinə Böyük Vətən müharibəsi kimi daxil olmuşdur. Düşmənin yaxşı silahlandırılmış və hərtərəfli təlim keçmiş 5,5 milyonluq canlı qüvvəsi, yüksək hərbi texnikaya malik 190 diviziyası Barens dənizindən cənuba doğru uzanan 5 min kilometrlik ərazidə şimal mərkəz və cənub istiqamətlərində geniş əməliyyata başladı. Müharibənin ilk dövründə alman faşistləri Moskvaya qədər irəliləyərək, sovet ordusunun 1,5 milyon canlı qüvvəsini əsir aldı. Eyni zamanda, faşist Almaniyası İtaliya, Rumıniya, Macarıstan və Finlandiya da daxil olmaqla, işğal etdiyi bütün ölkələrin iqtisadi və hərbi potensialını öz əlində cəmləşdirdi. Faşist Almaniyası hərbi cəhətdən SSRİ-dən 1,5-2 dəfə güclü idi. SSRİ isə müharibəyə tam hazır deyildi. Ölkədə arxayınlıq hökm sürürdü, üstəlik, müharibə ərəfəsində keçirilən kütləvi-siyasi repressiyalar orduya böyük zərbə vurmuşdu. Sovet ordusunun komanda heyətindən 43 min nəfər repressiyaya məruz qalmışdı. Ordunun ali rütbəli heyətindən 1800 nəfər həbs olunmuşdu. 5 marşaldan 3-ü, 15 ordu komandirindən 13-ü, 57 korpus komandanından 50-si, 186 diviziya komandirindən 154-ü, 406 briqada komandirindən 220-si repressiyaya məruz qalmışdı. Məhz bunlara və digər səbəblərə görə faşistlər ilk vaxtlar böyük qələbələr qazandılar.

Müharibənin ilk mərhələsində antihitler koalisiyası formalaşdı. 1941-ci ilin yayında SSRİ, ABŞ və Böyük Britaniya arasında bir sıra müqavilələr imzalandı. Avqustun 2-də ABŞ SSRİ-yə iqtisadi yardım edəcəyi barədə qərarını bildirdi. 1942-ci ilin 23 fevralında ABŞ və Böyük Britaniya arasında təcavüzkara qarşı mübarizəyə qarşılıqlı yardım prinsipləri barədə saziş imzalandı. Faşizm əleyhinə kapitalizm və sosializm sistemlərinin vahid koalisiyası yaradıldı və 50 dövlət birləşdi.

Müharibənin gedişində əsaslı dönüşün yaranmasında Şərq cəbhəsində sovet qoşunlarının Stalinqrad (1942-1943) və Oryol-Kursk ətrafında alman ordularına qarşı keçirdikləri hərbi əməliyyatların müstəsna rolu olmuşdu. 1944-cü ilin əvvəlindən etibarən SSRİ qoşunlarının keçirdiyi bir sıra strateji hərbi əməliyyatlar nəticəsində almanlar tərəfindən zəbt olunmuş sovet əraziləri tamamilə azad edildi, döyüşlər Avropa ölkələrinə keçirildi. 1944-cü ilin oktyabrında SSRİ-nin keçmiş sərhədi bərpa olundu. 1944-cü il iyulun 6-da Fransanın şimalına (Normandiya) qoşun çıxarılması ilə ikinci cəbhə açıldı. 1945-ci il aprelin 16-da Berlin uğrunda döyüşlər başlandı. Aprelin 25-də Elbada müttəfiq qoşunları görüşdü. Berlinin mühasirəsi başa çatdı. Mayın 2-də Berlin alındı. Mayın 8-də isə Almaniya danışıqsız təslim aktını imzaladı.

### Azərbaycan İkinci Dünya müharibəsi illərində

Zəngin sərvətlərə və əlverişli coğrafi mövqeyə malik olan Azərbaycan İkinci Dünya müharibəsində də iri dövlətlərin marağında mühüm yer tuturdu. Almaniya Bakı neftini ələ keçirməklə Şərqə - İran körfəzinə və Hind okeanına hərəkət etmək niyyətində idi. Hitlerin tapşırığı əsasında hətta Bakının sənaye və hərbi əhəmiyyətli obyektlərinin dəqiq xəritəsi də hazırlanmışdı.

Sovet Azərbaycanı isə SSRİ-nin tərkibində olduğuna görə hələ 1939-cu ilin payızında müharibəyə cəlb olunmuş, 1941-ci ilin iyunundan isə alman faşizminə qarşı müharibədə iştirak etmişdir. Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev demişdir: "İkinci Dünya müharibəsi əvvəlki müharibələrdən fərqli olaraq, süvari və piyadaların deyil, ilk növbədə, motorların, tankların, qırıcı və bombardmançı təyyarələrin, digər döyüş maşınlarının müharibəsi olmuşdur. Neft və neft məhsulları olmadan hərbçilər bu texnikanı hərəkətə gətirib, düşmən üzərində qələbəni təmin edə bilməzdilər. Müharibə illərində Azərbaycan neftçiləri bütün çətinliklərə baxmayaraq, silahlı qüvvələri kifayət qədər yanacaqla təmin edə bilmişdilər".

Həmin illərdə Azərbaycanın bütün iqtisadiyyatı da müharibə tələblərinə uyğun qurulmuşdu. Bütün sənaye sahələri cəbhə üçün məhsul istehsal etməyə başlamışdı. Müharibə illərində bütün Bakı ölkə neftinin 70-75%-ni, benzinin 85-90%-ni verirdi. 1941-1945-ci illərdə Bakı ölkəyə (SSRİ) 75 milyon ton neft, 22 milyon ton benzin vermişdi. Bakı döyüşən ordunun cəbhəxanalarından birinə çevrilmiş, "Katyuşa" raketi, "Şpakin pulemyotu" istehsal edir, burada "YAK-3" qırıcı təyyarəsi yığılırdı. Ümumən Bakıda 130-dan çox silah və hissələri hazırlanırdı.

Müharibə illərində Azərbaycanın elm xadimləri də müxtəlif problemlərin uğurlu həlli yolunda səylə çalışırdılar. Məşhur kimyaçı alimlərimizin, o cümlədən Yusif Məmmədəliyevin və başqalarının birgə səyi və əməkdaşlığı nəticəsində ən yüksək oktanlı benzin və sürtgü yağlarının növləri alınmışdır. Kimyaçı alimlər müharibə illərində 38 növ sürtgü yağı, 9 adda təyyarə benzini və 8 növ dizel yağı istehsalını təşkil etmişlər. SSRİ-nin ən məşhur kimyaçı alimləri içərisində layiqli yer tutan Yusif Məmmədəliyevin qələbədə xüsusi rolu təqdirəlayiqdir. O, ən yüksəkoktanlı təyyarə benzini, donmayan motor və sürtgü yağları, "Katyuşa" silahı üçün xüsusi mərmilər və başqa qiymətli komponentlər ixtira etmişdi. Keçmiş SSRİ-nin sabiq müdafiə naziri, Sovet İttifaqı marşalı, dörd dəfə Sovet İttifaqı Qəhrəmanı K.Y.Jukov öz memuarında yazmışdı: "Bakı cəbhəni lazım olduğu qədər yanacaqla fasiləsiz olaraq təmin edirdi". Rus şairi S.Mixalkov isə bu münasibətlə yazırdı: "Bakı nefti olmasaydı, heç bir tank, heç bir təyyarə yerindən tərpənməzdi, ölkədə istehsal olunan külli miqdarda hərbi texnika dəmir yığnağı olardı və qələbə qazanılmazdı".

Müharibə dövründə respublikamızın sənaye müəssisələri qələbə naminə cəbhəni lazımi məhsullarla aramsız olaraq təmin edirdilər. Azərbaycanın yüngül sənayesi cəbhənin ehtiyacları üçün təxminən 30, yeyinti sənayesi 50, yerli sənayesi isə 200 növə qədər məhsul istehsal edirdi. Ümumilikdə, cəbhəyə respublikamızdan 125 vaqon isti paltar yollanılmışdı. Eyni zamanda, ordu üçün respublikamızdan dava-dərman, tibb preparatları və lazımi başqa dərmanlar da göndərilmişdi. Azərbaycan vətəndaşları 1941-1943-cü illərdə müdafiə fonduna 15 kq qızıl, 952 kq gümüş, 311 milyon manatlıq istiqraz vermişdilər.

Bir sözlə, 1941-1945-ci illər Böyük Vətən müharibəsində Azərbaycan xalqı daha çox itkilərə və hədsiz məhrumiyyətlərə məruz qalmış, düşmən üzərində qələbə qazanılması üçün özünün var qüvvəsini əsirgəməmişdir. Azərbaycan xalqının misilsiz xidmətləri, qələbə naminə göstərdiyi fədakarlıq ermənipərəst İttifaq rəhbərliyi tərəfindən qiymətləndirilməmiş, hətta Azərbaycana qarşı ayrı-seçkilik, ikili standart tətbiq olunmuşdu. Bakı müharibə illərində cəbhəyə həm yanacaq verirdi, həm də hərbi texnika istehsal edirdi. Lakin bunun müqabilində Bakıya "qəhrəman şəhər" statusu verilmədi, keçmiş SSRİ-də Moskva, Leninqrad və Kiyevdən sonra iri şəhər olan Bakıya II və III dərəcəli status verildi, Tiflis və Yerevan isə I dərəcəli şəhər kimi ən yüksək dərəcədə təmin edildi.

### Azərbaycanlıların alman faşistlərinə qarşı döyüşlərdə qəhrəmanlıqları

Ümumi əhalisi 3,4 milyon olan Azərbaycan Böyük Vətən müharibəsi kimi tarixə düşmüş 1941-1945-ci illər müharibəsinə 640 minə yaxın oğlan və qız göndərmişdi. Böyük Vətən müharibəsi illərində Azərbaycanda yaradılan altı milli diviziya - 77-ci, 223-cü, 271-ci, 396-cı, 402-ci və 416-cı diviziyalar şərəfli döyüş yolu keçərək, Azərbaycan xalqının və Böyük Vətən müharibəsi tarixinə qızıl hərflərlə daxil oldu. Müxtəlif cəbhələrdə göstərdikləri rəşadətə görə 416-cı diviziya "Taqanroq diviziyası" (Taqanroqu azad etdiyinə görə), döyüşçülərinin əksəriyyətini azərbaycanlılar təşkil edən 227-ci diviziya "Temryuk diviziyası" (Taman yarımadasını azad etdiyinə görə), 77-ci diviziya isə "Simferopol diviziyası" (Simferopolu azad etdiyinə görə) adını qazanmışdılar. Bu milli atıcı diviziyalar Qafqazdan Berlinədək şanlı döyüş yolu keçib. Xalqımızın qəhrəman övladları Moskva, Leninqrad, Kiyev, Stalinqrad, Simferopol, Odessa və irili-xırdalı digər yüzlərlə yaşayış məntəqəsi uğrunda rəşadətlə döyüşüblər. Qəhrəman azərbaycanlılar Polşa, Çexiya, Yuqoslaviya və digər ölkələrin azad olunmasında da yaxından iştirak ediblər.

Cəbhə xətti üçün Azərbaycanda 15 min tibb işçisi, 750 rabitəçi, 3 min sürücü hazırlanmışdı. Azərbaycan xalqının bu müharibədə göstərdiyi əzmkarlıq və qəhrəmanlıqları haqqında Ulu Öndər Heydər Əliyev demişdir: "Azərbaycan xalqı İkinci Dünya müharibəsində həm döyüş meydanlarında, həm də arxa cəbhədə əsl şücaət və əzmkarlıq nümunələri göstərmişdir. Qısa müddət ərzində Azərbaycan Respublikası ərazisində 87 qırıcı batalyon, 1124 özünümüdafiə dəstəsi təşkil edilmişdir".

İki dəfə Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüş həmyerlimiz Həzi Aslanovun, həmçinin İsrafil Məmmədovun, Mehdi Hüseynzadənin, Gəray Əsədovun, komandirinin həyatını xilas etmək üçün sinəsini düşmən gülləsinə sipər edən dənizçi Qafur Məmmədovun, Leninqradın müdafiəsi zamanı 17 ölümcül güllə yarası almasına rəğmən təyyarəsini yerə endirən Hüseynbala Əliyevin, qadınlarımızdan təyyarəçi Züleyxa Seyidməmmədovanın, snayper Ziba Qəniyevanın, gəmi kapitanı Şövkət Səlimovanın və başqa həmvətənlərimizin adları tarixə düşmüşdür. Qafqazın müdafiəsi uğrunda döyüşlərdə Ziya Bünyadovun komandir olduğu bölmə düşmənin xeyli canlı qüvvə və texnikasını məhv etmişdi. 1945-ci ilin yanvarında isə sovet ordusu Polşada döyüşdüyü zaman Ziya Bünyadovun başçılıq etdiyi bölüyün bütün döyüşçüləri Plitsa çayı üstündəki körpü uğrunda qeyri-bərabər döyüşdə göstərdikləri igidliyə görə təltif edildilər. Görkəmli tarixçi alim, akademik Ziya Bünyadova Sovet İttifaqı Qəhrəmanı adı verildi. Rəşid Məcidov Brandenburq darvazası üzərində Sovet bayrağını dalğalandırmışdır. Faşizmə qarşı mübarizədə 121 nəfər Azərbaycan SSR vətəndaşı (onlardan 43 nəfəri azərbaycanlıdır) "Sovet İttifaqı Qəhrəmanı" adına, 30 nəfər "Şöhrət" (onlardan 15 nəfəri azərbaycanlıdır) ordeninin hər üç dərəcəsinə layiq görülmüş, 170 mindən çox azərbaycanlı əsgər və zabit isə müharibədə göstərdikləri igidliklərə görə müxtəlif orden və medallarla təltif olunub. Təkcə SSRİ-nin deyil, digər ölkələrin də faşizm işğalından azad edilməsində xüsusi qəhrəmanlıq göstərmiş əfsanəvi qəhrəman "Mixaylo" ləqəbli Mehdi Hüseynzadə kimi Azərbaycan övladları həm İtaliya, həm Yuqoslaviya, həm də Sovet İttifaqı Qəhrəmanı adına layiq görülüb.

1418 gün davam edən Böyük Vətən müharibəsi sovet xalqının sıx birliyinin və Vətənə məhəbbətinin nümayişinə çevrilmişdi. Böyük qələbə, milliyyətindən asılı olmayaraq, xalqların kütləvi qəhrəmanlığının məntiqi nəticəsi idi.

(Ardı 8-ci səhifədə)

## Hərbi vəzifəlilərlə keçirilən təlim toplanışı başa çatıb



2026-cı ilin hazırlıq planına əsasən, Xüsusi Təyinatlı Qüvvələrin "N" hərbi hissəsində ehtiyatdan çağırılan bir qrup hərbi vəzifəlilərin cəlb edildiyi təlim toplanışı başa çatıb.

Müdafiə Nazirliyi xəbər verir ki, toplanışın başa çatması ilə əlaqədar keçirilən bağlanış mərasimində Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin, Vətən uğrunda canlarından keçmiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Tədbirdə çıxış edənlər bildiriblər ki, toplanış zamanı iştirakçıların döyüş vərdişləri və bacarıqları inkişaf etdirilib, qarşıya qoyulan məqsədlərə nail olunub.

Plana uyğun olaraq, hərbi vəzifəlilərlə atəş, taktiki, sıra, fiziki, ictimai-siyasi hazırlıq üzrə məşğələlər, eləcə də müxtəlif ixtisaslar üzrə nəzəri və praktiki məşğələlər keçirilib, vətənpərvərlik istiqamətində maarifləndirici söhbətlər aparılıb.



Sonda iştirakçılara gələcək işlərində uğurlar arzulanıb və təlimdə fərqlənənlərə fəxri fərmanlar verilib.

### Görkəmli şəxsiyyətlər

## Ölkəmizin ilk hərbi məktəblərindən birinin ilk azərbaycanlı rəisi

(Əvvəli 1-ci səhifədə)

Həmin vaxtlarda o, hərbi xidmətlərinə görə 3-cü dərəcəli "Müqəddəs Stanislav" ordeni ilə, Birinci Dünya müharibəsində "Dikaya diviziya"nın tərkibində vuruşaraq, "İgidliyə görə" medalı və 4-cü dərəcəli "Müqəddəs Georgi" ordeni ilə təltif olunub.

1916-cı il mayın əvvəllərində o, döyüşlərdə yaralanıb və müalicə almaq üçün Tiflisə göndərilib. Burada ictimai fiqur və rəssamlıq üzrə təhsil alan ilk azərbaycanlı qadın hesab edilən Qeysər Kaşıyeva ilə evlənib. Bu evlilikdən Leyla adlı qızları dünyaya gəlib.

Şirin bəy Kəsəmənli Azərbaycan Xalq Cümhuriyyəti dövründə - 1918-1920-ci illərdə erməni-daşnak silahlı birləşmələrinə qarşı Qarabağ, Zəngəzur və Qazax bölgələrində Azərbaycanın ərazi bütövlüyünü qorumaq üçün aparılan mübarizədə hərbi əməliyyatlara rəhbərlik edən komandirlərdən biri olub.

ADR Milli Ordusunun qurulmasında fəal iştirak edib, general Əlağa Şıxlinskinin komandanı olduğu Azərbaycan Korpusuna daxil olan 2-ci Qarabağ Süvari Alayında komandan müavini vəzifəsində xidmət edib.



Türk hərbi qüvvələri Azərbaycanı tərk etdikdən sonra o, Gəncədə fəaliyyət göstərən Azərbaycanın ilk hərbi məktəblərindən olan "Praporşiklər Məktəbi"nin ilk azərbaycanlı rəisi olub.

Hərbi nazirin 1919-cu il 8 aprel tarixli əmri ilə 2-ci Bakı Piyada Alayı (sonralar 4-cü Quba Piyada Alayı adlandırılıb) komandiri təyin edilib. Şimal sərhədlərinin müdafiəsi məqsədilə yaradılan Xaçmaz dəstəsinə də rəhbərlik etmək Şirin bəy Kəsəmənliyə həvalə olunub. 9 aprel 1919-cu ildə hökumətin əmri ilə hərbi xidmətdə fərqləndiyinə görə "polkovnik" rütbəsinə layiq görülüb.

1919-cu ilin sonlarında Şirin bəy Kəsəmənli ağır şəkildə malyariya xəstəliyinə (və ya səpmə-yatalaq) tutulub və 1919-cu il sentyabrın 29-da müalicə olunması üçün Tiflisə göndərilib. Hələ müalicədə olarkən Hərbi nazirin 1919-cuil 7 dekabr tarixli əmri ilə 2-ci Piyada Diviziyası komandirinin müavini təyin edilib. 1920-ci il yanvarın 10-da Hərbi Departamentin 17 nömrəli əmrində Hərbi nazir vəzifəsini icra edən artilleriya generalı Ə.Şıxlinski elan edib ki, 2-ci Piyada Diviziyası komandirinin müavini polkovnik Şirin bəy Kəsəmənli yanvarın 4-də Tiflisdə ağır xəstəlikdən vəfat edib. Əmrdə mərhumun müstəqil Azərbaycanın Silahlı Qüvvələri qarşısında xidmətləri yüksək qiymətləndirilib və onun dəfninin bütün xərclərinin dövlət tərəfindən qarşılanacağı bildirilib. Dəfn mərasimi Gəncədə keçirilib və o, doğma kəndində dəfn edilib.

**"Azərbaycan Ordusu"**

## Azərbaycan Ordusunun şəxsi heyəti ilə keçirilən ictimai-siyasi hazırlıq dərsi

(Əvvəli 7-ci səhifədə)

Ulu Öndər Heydər Əliyevin 1993-cü ildə yenidən hakimiyyətə gəlməsindən sonra müharibə veteranlarının xidmətləri çox yüksək qiymətləndirilmiş, onlara dövlət qayğısı göstərmək haqda 1994-cü ildə fərman imzalamışdır. Ölkəmizdə müharibə veteranlarına göstərilən diqqət və qayğı Ulu Öndər Heydər Əliyevin siyasi kursunun layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev tərəfindən bu gün də yüksək səviyyədə davam etdirilir. Prezident İlham Əliyevin 1941-1945-ci illər müharibəsi veteranlarına, əlillərinə, həlak olmuş və sonralar vəfat etmiş döyüşçülərin dul arvadlarına, müharibə illərində arxa cəbhədə fədakar əməyinə görə orden və medallarla təltif edilmiş şəxslərə dövlət qayğısının artırılması haqqında verilmiş fərmanı, 9 May - Qələbə Günü münasibətilə hər il müharibə veteranlarının təbrik edilməsi və onlara verilən birdəfəlik yardımlar haqqında sərəncamları və yubiley medalları ilə təltif edilməsi bunun əyani sübutudur.

XX əsrdə bəşəriyyət alman faşizmi ilə, azərbaycan xalqı isə dörd dəfə (1905-1911, 1918-1924, 1948-1954, 1988-1994) erməni faşizminin vəhşilikləri ilə üzləşmişdir. Erməni daşnaklarının törətdikləri vəhşiliklər öz miqyasına və qəddarlığına görə heç də Böyük Vətən müharibəsində faşistlərin törətdikləri vəhşiliklərdən geri qalmamışdır. 1988-1994-cü illərdə növbəti dəfə Azərbaycan Respublikasının ərazi bütövlüyünə göz dikən Ermənistan havadarları ilə öz istəyinə qismən nail olmuş, Azərbaycan Respublikasının keçmiş "Dağlıq Qarabağ Muxtar Vilayəti"ni və ona bitişik 7 inzibati rayonu işğal etmişdir. Dinc sakinləri daima hədəfə alan azğın düşmən 2020-ci ilin sentyabr ayında Azərbaycan Ordusunun əks-hücüm əməliyyatları və 2023-cü ildə Qarabağ iqtisadi rayonunda keçirdiyi antiterror əməliyyatı heç vaxt erməni işğalı ilə barışmayacağını, daim döyüşə hazır olduğunu göstərdi. Babalarımızın Böyük Vətən müharibəsində, atalarımızın və qardaşlarımızın Qarabağ savaşında göstərdikləri qəhrəmanlıqları özlərinə örnək götürən qəhrəman Azərbaycan xalqının övladları Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında tarixi ədaləti bərpa edərək əzəli və əbədi torpaqlarımızı 30 ilə yaxın davam edən erməni işğalından azad etdi. Azərbaycanın parlaq qələbəsi dövlətimizin regionda söz sahibi olduğunu tam açıqlığı ilə nümayiş etdirdi.

**İdeoloji Təminat İdarəsi**

## Xəbərlər: hadisələr, faktlar

### Litva ABŞ-dən "HIMARS" raket sisteminin ikinci batareyasını alacaq



Litva "HIMARS" raket sisteminin ikinci batareyasını almaq üçün ABŞ-nin "Lockheed Martin" şirkəti ilə müqavilə imzalayıb.

Bu barədə Litva Müdafiə Nazirliyinin açıqlamasında deyilir. "Biz 280 milyon avroya ikinci "HIMARS" batareyasını alırıq. Əvvəllər alınmış ilk batareyanın bu il çatdırılması planlaşdırılır. Bununla biz ölkəmizin müdafiəsinin gələcəyinə, NATO-nun şərq cinahındakı müttəfiqlərimizlə birlikdə müdafiə qabiliyyətimizin gücləndirilməsinə sərmayə qoyuruq", - deyə müdafiə naziri Robertas Kaunas bildirib.

Paketə buraxılış platformaları, müxtəlif tipli və funksiyalı raketlər, idarəetmə və rabitə avadanlığı, həmçinin döyüş heyətinin təlimi daxildir.

2022-ci ildə Vilnüs "HIMARS" çoxnövlü raket sistemlərinin istehsalçısı olan "Lockheed Martin" ilə 495 milyon dollarlıq ilk müqavilə imzalayıb. İkinci müqavilə də eyni təchizatçı ilə imzalanıb.

### Ukrayna dronları Rusiyanın bir neçə "Mi-28" və "Mi-17" helikopterlərinə zərbə endirib



Ukrayna hərbçiləri pilotsuz uçuş aparatları vasitəsilə Rusiyanın Voronej vilayətində yerləşdirilmiş "Mi-28" və "Mi-17" döyüş helikopterlərinə zərbə endirib.

Bu barədə Ukrayna Silahlı Qüvvələrinin Pilotsuz Sistemlər Qüvvələrinin komandanı Robert "Madyar" Brovdin məlumat yayıb.

Onun sözlərinə görə, zərbə 4 ədəd "Mi-28" və "Mi-17" helikopterinin yerləşdiyi eniş-qalxış meydançasına endirilib.

Pilotsuz Sistemlər Qüvvələrinin bölmələri Rusiyanın Voronej vilayətində, təmas xəttindən 150 kilometr məsafədə yerləşən ərazidə iki "Mi-28" və "Mi-17" helikopterini vurub. Həmin ərazidə helikopterlər yanacaqla təmin olunur, həmçinin uçuşlararası texniki baxış keçirilirdi. Zərbələr əsas pərləri yan keçərək, mühərrik bölməsinin arxa mərkəzi hissəsinə endirilib", - deyə komandan dəqiqləşdirib. Hücum nəticəsində helikopterlərə xidmət göstərən mütəxəssislərdən azı biri həlak olub.

Rusiyanın "Mi-28" zərbə helikopteri zirehli texnikanın, canlı qüvvənin və aşağı hündürlükdə uçan hava hədəflərinin məhv edilməsi üçün nəzərdə tutulub. O top silahları və idarəolunan raketlərlə təchiz edilib, həmçinin günün istənilən vaxtında və mürəkkəb hava şəraitində tapşırıqları yerinə yetirə bilir.

"Mi-28" helikopterlərindən Rusiya qoşunları döyüş əməliyyatları zamanı, o cümlədən quru əməliyyatlarına dəstək məqsədilə fəal istifadə edir. "Mi-17" nəqliyyat helikopteri isə şəxsi heyətin və yüklərin daşınması, həmçinin təxliyə əməliyyatlarının icrası üçün istifadə olunur.

**AZƏRTAC-ın materialları əsasında**

| Redaktor | Telefon | Ünvanımız | Qəzetin hesabı | | Növbətçi | |
|---|---|---|---|---|---|---|
| mayor Ceyhun CƏFƏRLİ | Müdafiə Nazirliyinin Hərbi Nəşriyyatı üzrə növbətçi: (012) 404-76-22 | Bakı şəhəri, Yasamal rayonu, Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi | 2 saylı Xəzinədarlıq Kod: 200189 VÖEN: 1500444791 | "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək həftədə iki dəfə (III və VI günlər) Müdafiə Nazirliyinin Hərbi Nəşriyyatının mətbəəsində hazır diapozitivlərdən çap olunur. Təqdim edilən əlyazmalara rəy verilmir, müəllifə qaytarılmır. Qəzeti Müdafiə Nazirliyinin rəsmi internet səhifəsindən (www.mod.gov.az) oxuya bilərsiniz. | baş leytenant Elçin İMANOV | Lisenziya № 361 Sifariş № 466 Nüsxə 3653 |